# AKADEMİK TARİH VE DÜŞÜNCE DERGİSİ

*Academic Journal of History and Idea*

**Review Article**

**Received: 12.01.2026** **Accepted: 20.06.2026**



**Rəhimə Kuhi***

https://orcid.org/0009-0009-6835-0908


# Ali məktəblərdə təlim prosesinin təşkilində milli-mənəvi dəyərlərin tətbiq mexanizmləri

## Mechanisms for the Implementation of National and Moral Values in the Organization of the Educational Process in Higher Education Institutions


***Xülasə***

*Müasir qloballaşma şəraitində ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyası aktual pedaqoji problemlərdən biri kimi çıxış edir. Tədqiqatın məqsədi ali məktəblərdə tədris prosesinin təşkili və planlaşdırılması zamanı milli-mənəvi dəyərlərin tətbiqi imkanlarını araşdırmaq, həmçinin onların tələbələrin şəxsiyyət kimi formalaşmasına təsirini müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatda nəzəri təhlil, müqayisəli təhlil, müşahidə və sorğu metodlarından istifadə edilmişdir. Empirik tədqiqat Bakı Dövlət Universitetinin müxtəlif fakültələrində təhsil alan tələbələr arasında aparılmış, əldə olunan məlumatlar statistik və məzmun təhlili əsasında qiymətləndirilmişdir. Tədqiqatın nəticələri göstərir ki, milli-mənəvi dəyərlərin tədris prosesinə sistemli şəkildə inteqrasiyası tələbələrin milli kimlik şüurunun möhkəmlənməsinə, mənəvi dəyərləri mənimsəməsinə və şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir. Eyni zamanda müəyyən edilmişdir ki, bu prosesdə müəllimin rolu, tədris mühitinin təşkili və kurikulumun məzmunu həlledici əhəmiyyət daşıyır. Araşdırma nəticələri milli-mənəvi dəyərlərin ali təhsil sistemində məqsədyönlü və ardıcıl şəkildə tətbiqinin gənclərin mənəvi və sosial inkişafına xidmət edən mühüm pedaqoji istiqamətlərdən biri olduğunu təsdiq edir.*



***Açar sözlər:*** *milli-mənəvi dəyərlər, ali təhsil, tədris prosesi, şəxsiyyətin formalaşması, milli kimlik, mənəvi tərbiyə*



***Abstract***

*In the context of globalization, the integration of national and moral values into the educational process has become an important pedagogical issue for higher education institutions. The aim of this study is to examine the possibilities of incorporating national and moral values into the organization and planning of the teaching process in higher education and to determine their contribution to students' personal development.*



*PhD Candidate, Doctor of Philosophy (PhD) Program, Baku State University, Azerbaijan, rehime.kuhi.95@gmail.com



Citation: Kuhi, R. (2026). Ali məktəblərdə təlim prosesinin təşkilində milli-mənəvi dəyərlərin tətbiq mexanizmləri. *Akademik Tarih ve Düşünce Dergisi, 13*(3), 1-13.



***Copyright and License Statement —*** *© 2026 Akademik Tarih ve Düşünce Dergisi (Academic Journal of History and Idea). This article is published as an open access article under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc/4.0/). The article may be used, shared, adapted, distributed, and reproduced in any medium or format for non-commercial purposes, provided that appropriate credit is given to the author(s) and the journal. The authors are solely responsible for the scientific, legal, and ethical content of the article; the editors and editorial board disclaim all responsibility.*

*The study employed theoretical analysis, comparative analysis, observation, and survey methods. The empirical component was conducted among students from different faculties of Baku State University. The collected data were analyzed using statistical and content analysis techniques. The findings indicate that the systematic integration of national and moral values into the educational process contributes positively to the strengthening of national identity, the internalization of moral values, and the overall development of students as socially responsible individuals. The results also reveal that the role of the instructor, the educational environment, and the content of the curriculum are critical factors in the effectiveness of this process. Overall, the study demonstrates that the purposeful and consistent incorporation of national and moral values within higher education represents an important pedagogical approach that supports the moral and social development of young people while reinforcing their cultural and civic awareness.*

***Keywords:*** *national and moral values, higher education, educational process, personal development, national identity, moral education*

## Giriş

Müasir qloballaşma şəraitində milli-mənəvi dəyərlərin qorunması və onların gənc nəslə ötürülməsi cəmiyyətin inkişafında mühüm elmi-pedaqoji problemlərdən biri kimi çıxış edir. Bu baxımdan ali təhsil müəssisələrində tədris prosesinin təşkili zamanı milli-mənəvi dəyərlərin inteqrasiyası xüsusi aktuallıq kəsb edir. Çünki ali məktəblər yalnız peşəkar kadr hazırlayan deyil, eyni zamanda milli kimliyi və mənəvi dəyərləri formalaşdıran əsas sosial institutlardan biridir.

Problemin qoyuluşu ondan ibarətdir ki, müasir təhsil sistemində texnoloji inkişafın və qloballaşmanın təsiri nəticəsində gənclərin dünyagörüşündə mühüm dəyişikliklər baş verir. Bu dəyişikliklər ilk növbədə informasiya mühitinin genişlənməsi və rəqəmsallaşma prosesləri ilə bağlıdır. Gənclər artıq bilik və dəyərləri yalnız ənənəvi sosial institutlardan deyil, eyni zamanda qlobal informasiya şəbəkələrindən də əldə edirlər. Bu isə onların dəyərlər sisteminin daha çoxşaxəli və bəzi hallarda ziddiyyətli xarakter almasına səbəb olur.

Elmi baxımdan bu proses sosiallaşmanın transformasiyası kimi qiymətləndirilir. Ənənəvi sosiallaşma modelində ailə, məktəb və milli mühit əsas rol oynayırdısa, müasir dövrdə virtual mühit, sosial media və qlobal mədəni təsirlər bu funksiyanın müəyyən hissəsini öz üzərinə götürmüşdür. Nəticədə gənclərin identiklik (kimlik) formalaşması prosesi daha mürəkkəb xarakter alır və onların milli-mənəvi dəyərlərə münasibətində selektiv yanaşmalar müşahidə olunur. Bu səbəbdən ali təhsildə milli-mənəvi dəyərlərin tədris prosesinə sistemli şəkildə inteqrasiyası aktual elmi problem kimi ön plana çıxır. Tədqiqatın məqsədi ali məktəblərdə tədris prosesinin təşkili və planlaşdırılması zamanı milli-mənəvi dəyərlərin tətbiqi imkanlarını araşdırmaq, habelə bu istiqamətdə səmərəli pedaqoji yanaşmaları müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyası kompleks şəkildə nəzərdən keçirilmiş, bu istiqamətdə müəllimin rolu, tədris metodları və kurikulumun məzmunu arasındakı əlaqələr sistemli şəkildə təhlil edilmişdir. Tədqiqatın strukturu giriş, nəzəri əsaslar, metodologiya, empirik təhlil,

müzakirə və nəticə bölmələrindən ibarətdir. Hər bir bölmə problemin müxtəlif aspektlərini əhatə etməklə mövzunun kompleks şəkildə araşdırılmasına xidmət edir.

**Mövzunun aktuallığı**

Müasir qloballaşma şəraitində milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi mühüm elmi və pedaqoji problemlərdən biri kimi çıxış edir. Xüsusilə ali təhsil sistemində bu dəyərlərin tədris prosesinə inteqrasiyası məsələsi aktuallıq kəsb edir. Çünki ali məktəblər yalnız ixtisaslı mütəxəssislər hazırlayan deyil, eyni zamanda milli kimliyə və mənəvi dəyərlərə bağlı şəxsiyyət formalaşdıran əsas sosial institutlardan biridir.

Mənəvi tərbiyə insanın mənəviyyatının və əxlaqi keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Məhz mənəvi tərbiyə sayəsində insan fərd səviyyəsindən inkişaf edərək şəxsiyyət kimi formalaşır. Bu prosesdə genetik xüsusiyyətlər, sosial mühit və fitri qabiliyyətlər də mühüm amillər kimi çıxış edir. Mənəvi kamillik şəxsiyyətin əsas göstəricilərindən biridir. Bu keyfiyyət genetik meyillərlə yanaşı, məqsədyönlü və ardıcıl mənəvi tərbiyə prosesi nəticəsində formalaşır (Qasımova, 2004).

Müasir dövrdə texnoloji inkişaf, informasiya axınının sürətlənməsi və qloballaşmanın təsiri nəticəsində gənclərin dünyagörüşündə əhəmiyyətli dəyişikliklər baş verir ki, bu da milli-mənəvi dəyərlərin qorunması məsələsini daha da aktuallaşdırır. Bu baxımdan ali məktəblərdə tədris prosesinin təşkili və planlaşdırılması zamanı milli-mənəvi dəyərlərin nəzərə alınması xüsusi əhəmiyyət daşıyır. Bütün bunlar göstərir ki, ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin tətbiq imkanlarının və yollarının tədqiqi həm nəzəri, həm də praktik baxımdan aktual elmi və pedaqoji əhəmiyyətə malikdir.

**Tədqiqatın məqsədi**

Tədqiqatın əsas məqsədi ali məktəblərdə tədris prosesinin təşkili və planlaşdırılması zamanı milli-mənəvi dəyərlərin tətbiqi imkanlarını və yollarını müəyyənləşdirmək, bu istiqamətdə səmərəli pedaqoji yanaşmaları əsaslandırmaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri**

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir. Milli-mənəvi dəyərlərin mahiyyətini və pedaqoji əhəmiyyətini araşdırmaq. Ali təhsil sistemində milli-mənəvi dəyərlərin rolunu təhlil etmək. Tədris prosesinin təşkili və planlaşdırılmasında bu dəyərlərin yerini müəyyənləşdirmək. Milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiya mexanizmlərini müəyyən etmək. Müasir pedaqoji metodlar əsasında tətbiq yollarını əsaslandırmaq. Ali məktəblərdə bu istiqamətdə mövcud təcrübəni təhlil etmək və təkmilləşdirmə istiqamətlərini müəyyənləşdirmək.

**Tədqiqatın metodologiyası**

Tədqiqat işində ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin tədris prosesindəki rolunun araşdırılması məqsədilə kompleks metodoloji yanaşmadan istifadə olunmuşdur. Tədqiqatın nəzəri-metodoloji əsasını mövzu ilə bağlı mövcud elmi ədəbiyyatın sistemli təhlili təşkil edir. Bu çərçivədə elmi-nəzəri təhlil və müqayisəli təhlil metodları tətbiq edilərək müxtəlif elmi yanaşmalar və konseptual baxışlar qarşılaşdırılmışdır.

Tədqiqatın empirik hissəsində keyfiyyət və kəmiyyət metodlarının sintezinə əsaslanan yanaşma seçilmişdir. Belə ki, müşahidə metodu vasitəsilə ali məktəblərdə tədris prosesinin təşkili və milli-mənəvi dəyərlərin bu prosesdə əks olunma səviyyəsi öyrənilmişdir. Eyni zamanda sorğu və qismən müsahibə metodlarından istifadə olunaraq respondentlərin mövzuya dair münasibətləri müəyyən edilmişdir.

Empirik məlumatların toplanması məqsədilə sorğu Bakı Dövlət Universitetinin tarix, filologiya və coğrafiya fakültələrində təhsil alan 90 tələbə arasında aparılmışdır. Tədqiqatın seçmə həcmi məqsədyönlü seçmə prinsipi əsasında formalaşdırılmışdır. Sorğuda istifadə olunan suallar respondentlərin milli-mənəvi dəyərlər haqqında anlayış səviyyəsini, bu dəyərlərin ali təhsil sistemində tədrisinin vacibliyinə dair mövqelərini, həmçinin tədris prosesində həmin dəyərlərə ayrılan diqqətin qiymətləndirilməsini əhatə etmişdir. Tədqiqat çərçivəsində respondentlərin milli-mənəvi dəyərlərə münasibətini öyrənmək məqsədilə strukturlaşdırılmış sorğu tətbiq edilmişdir. Sorğu sualları tələbələrin bu sahədəki bilik səviyyəsini, mövqelərini və tədris prosesinə dair qiymətləndirmələrini müəyyən etməyə yönəlmişdir.

Sorğu aləti respondentlərin milli-mənəvi dəyərlər haqqında anlayışını, milli dəyərlərlə bağlı məlumatlılıq səviyyəsini, bu dəyərlərin ali təhsildə tədrisinin vacibliyinə münasibətini, tədris prosesində onlara ayrılan yerin qiymətləndirilməsini, milli-mənəvi dəyərlərin hansı fənlər çərçivəsində daha səmərəli tədris oluna biləcəyinə dair fikirləri, müəllimlərin dərs prosesində milli dəyərlərə yanaşma səviyyəsini, auditoriyadankənar fəaliyyətlərdə milli-mənəvi dəyərlərin təzahürünü və bu dəyərlərin tələbələrin şəxsi inkişafına təsirini əhatə etmişdir. Sorğuda istifadə olunan suallar qeyd olunan istiqamətlərə uyğun şəkildə hazırlanmış və respondentlərin fikirlərinin hərtərəfli öyrənilməsinə xidmət etmişdir. Toplanmış empirik məlumatlar statistik təhlil, müqayisə və ümumiləşdirmə metodları vasitəsilə işlənmiş, əldə olunan nəticələr sistemləşdirilərək elmi nəticələr çıxarılmışdır. Tədqiqatın nəticələrinin etibarlılığını təmin etmək məqsədilə müxtəlif metodların kombinasiyasından istifadə edilmişdir ki, bu da əldə olunan nəticələrin obyektivliyini və əsaslılığını artırır.

**Tədqiqatın elmi yeniliyi**

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyası üçün kompleks metodik yanaşma modeli təklif olunmuşdur. Bu model ali təhsil kurikulumunda milli-mənəvi məzmunun strukturlaşdırılmış inteqrasiyasını, tədris prosesində milli-mənəvi dəyərlərin tətbiqi üçün mərhələli pedaqoji mexanizmi (bilik → dərk → dəyərləndirmə → davranış modeli), müəllimin "dəyər ötürücüsü" funksiyasını sistemləşdirən pedaqoji təsir modelini, interaktiv tədris üsullarına əsaslanan inteqrativ metodik yanaşma sistemini, eləcə də milli-mənəvi dəyərlərin tədris prosesində ölçülməsi və qiymətləndirilməsi üçün sadələşdirilmiş meyarlar sistemini özündə birləşdirir.

Bu yanaşma ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin yalnız nəzəri müstəvidə deyil, həm də praktik və davranış səviyyəsində formalaşmasına imkan yaradan sistemli model kimi çıxış edir. Milli mədəniyyətə əsaslanan təhsil fəaliyyəti tələbələrin mənəvi keyfiyyətlərinin formalaşmasına mühüm təsir göstərir. Eyni zamanda mədəni dəyərlərin tədris prosesinə inteqrasiyası qloballaşma şəraitində milli kimliyin və mənəvi irsin qorunmasına xidmət edir (Nugroho et al., 2025). "Təhsil haqqında" Qanunun 4-cü maddəsində əks olunan məqsədlər gənc nəslin milli-mənəvi dəyərlər əsasında inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır: "4.0.1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; 4.0.2. Milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabətqabiliyyətli mütəxəssis kadrlar hazırlamaq" (Azərbaycan Respublikası, 2009). Milli-mənəvi dəyərlər hər bir xalqın tarixi, mədəniyyəti, adət-ənənələri, dili və dünyagörüşü ilə sıx bağlı olan mənəvi sərvətlər sistemidir. Bu dəyərlər cəmiyyətin identikliyini müəyyənləşdirir və sosial davranış normalarının formalaşmasında mühüm rol oynayır.

Azərbaycançılıq ideologiyasının daşıyıcıları sırasında milli-mənəvi dəyərlərə bağlı, yüksək intellektual hazırlığa malik gənclər mühüm yer tutur. Ulu öndər qeyd edirdi ki, "Cəmiyyətin gələcək inkişafı, gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır... Bizim milli-mənəvi dəyərlərimiz, tarixi köklərimiz, dilimiz və dinimiz – bunların hamısı milli ideologiyamızın mühüm tərkib hissələridir". Bu fikir milli ideologiyanın davamlı inkişafında gənclərin mənəvi tərbiyəsinin və dəyərlər sisteminin əhəmiyyətini vurğulayır (Kuhi, 2025). Digər bir yanaşmaya görə, hər bir xalqın özünəməxsus tarixi inkişaf yolu, mədəni irsi, adət-ənənələri və mənəvi dəyərlər sistemi mövcuddur. Bu baxımdan milli-

mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi cəmiyyətin mədəni davamlılığının mühüm şərtlərindən biri hesab edilir. Eyni zamanda qlobal mənəvi nailiyyətlərdən faydalanmaqla milli-mədəni mühitin zənginləşdirilməsi və gənc nəslin sağlam əxlaqi prinsiplər əsasında formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Tarixi inkişaf prosesində formalaşmış milli adət-ənənələr və mənəvi dəyərlər cəmiyyətin mənəvi tərbiyəsində mühüm rol oynayaraq insanlarda mənəvi saflıq, etik davranış və sosial məsuliyyət kimi keyfiyyətlərin inkişafına töhfə verir (Abbasov, 2010).

Təhsil sistemində bu dəyərlərin tədrisi tələbələrdə vətənpərvərlik, milli kimlik və mənəvi məsuliyyət hissinin inkişafına şərait yaradır. Milli-mənəvi tərbiyə çoxşaxəli və geniş məzmunlu sahədir. Bu baxımdan millət anlayışının mahiyyətinə və onun formalaşma prosesinə nəzər salmaq vacibdir. Millətin yaranması, inkişafı və təşəkkülü ilə bağlı müxtəlif dövrlərdə fərqli nəzəri yanaşmalar irəli sürülmüşdür. Milli özünüdərk milli birliyin əsas şərtlərindən biri hesab olunur. Millət vahid ərazidə yaşayan, ortaq tarixə, mədəni irsə və mənəvi bağlılığa malik insanların formalaşdırdığı sosial birlikdir. İnsan cəmiyyəti ailə, qəbilə, millət və bəşəriyyət səviyyələrində qarşılıqlı münasibətlər, dəyərlər və ideyalar əsasında inkişaf edir. Bu baxımdan milli özünüdərkin qorunması cəmiyyətin sosial və mədəni davamlılığında mühüm rol oynayır.

İnsanlar arasında formalaşan sosial münasibətlər mənəvi fəaliyyətin inkişafına zəmin yaradır. Mənəviyyatın zənginliyi millətin mühüm göstəricilərindən biri hesab olunur və onun formalaşmasına müxtəlif tarixi amillər təsir göstərir. Tədris prosesinə milli-mənəvi dəyərlərin inteqrasiyası zamanı gənclərin mənəvi tələbatlarının nəzərə alınması xüsusi əhəmiyyət daşıyır. Buraya intellektual fəaliyyətə, bədii yaradıcılığa, estetik inkişaf və sosial ünsiyyətə olan tələbatlar daxildir.

Milli-mənəvi dəyərlərin ali təhsil sisteminə inteqrasiyası yalnız Azərbaycanda deyil, bir çox ölkələrdə də aktual istiqamətlərdən biri kimi qiymətləndirilir. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, bu prosesin uğurlu həyata keçirilməsi milli kimliyin qorunması ilə qlobal kompetensiyaların formalaşdırılması arasında balansın təmin edilməsindən asılıdır. Məsələn, Türkiyə təhsil sistemində milli-mənəvi dəyərlərin tədrisi dövlət siyasətinin mühüm istiqamətlərindən biri hesab olunur. Ali məktəblərdə milli tarix, dil və mədəniyyətin sistemli şəkildə tədrisi tələbələrdə milli kimlik və vətəndaşlıq şüurunun inkişafına xidmət edir.

Yaponiya təcrübəsində milli-mənəvi dəyərlərin təhsilə inteqrasiyası daha çox etik tərbiyə və sosial məsuliyyət kontekstində həyata keçirilir. Kollektivçilik, hörmət, məsuliyyət və əməksevərlik kimi dəyərlər həm kurikulumda, həm də gündəlik təhsil mühitində davranış normaları kimi formalaşdırılır.

Bu yanaşma tələbələrin yalnız akademik deyil, həm də sosial baxımdan yetkin şəxsiyyət kimi yetişməsinə şərait yaradır.

Avropa ölkələrində, xüsusilə Finlandiyada isə təhsil sistemi daha çox ümumbəşəri dəyərlərə əsaslansa da, milli mədəniyyətin qorunmasına xüsusi diqqət yetirilir. Tədris proqramlarında yerli dilin, ədəbiyyatın və mədəni irsin öyrənilməsi ilə yanaşı, tənqidi düşüncə və fərdi inkişaf da ön plana çəkilir. Bu model milli kimliyin qorunması ilə qlobal vətəndaşlıq anlayışının uzlaşdırılmasının uğurlu nümunələrindən biri kimi qiymətləndirilir.

**Ali təhsildə milli-mənəvi dəyərlərin rolu**

Ali məktəblərdə milli-mənəvi dəyərlərin tədris prosesinə daxil edilməsi tələbələrin dünyagörüşünün zənginləşməsinə, onların sosial məsuliyyətinin artmasına və milli kimliyə bağlılığının güclənməsinə şərait yaradır. Bu dəyərlərin tədris prosesində nəzərə alınması tələbələrin şəxsiyyət kimi inkişafını təmin edir, sosial və etik davranış normalarının formalaşmasına töhfə verir və milli şüurun möhkəmlənməsinə xidmət edir.

1945-ci ildə yaradılmış beynəlxalq qurum olan UNESCO-nun əsas məqsədlərindən biri mədəni irsin qorunması olmuşdur. UNESCO-nun 2021-ci il hesabatında qeyd edilir ki, təhsil yalnız biliklərin ötürülməsi deyil, eyni zamanda şəxsiyyətin və mənəvi dəyərlərin formalaşması prosesidir (UNESCO, 2021). Bu baxımdan ali təhsil müəssisələri tələbələrdə sosial məsuliyyət, tolerantlıq və ümumbəşəri dəyərlərin inkişafına xüsusi diqqət yetirməlidir.

2003-cü ildə qəbul edilmiş "Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiya"ya əsasən folklor, şifahi ədəbiyyat, adət-ənənələr, mərasimlər və milli sənət növləri təhsil vasitəsilə yaşadılmalı və gələcək nəsillərə ötürülməlidir. Bu vəzifə həm orta təhsil, həm də ali təhsil səviyyəsində həyata keçirilməlidir. Ali məktəblərdə etnopedaqogikanın tədris olunması bunun nümunələrindən biri hesab edilə bilər. "Etnopedaqogika şəxsiyyətin vətəndaş mövqeyini, onun çoxmədəniyyətli mühitdə yerini və rolunu müəyyənləşdirir. Xalqın ənənəvi mədəniyyəti və mənəvi dəyərləri tərbiyənin mühüm əsasını təşkil edir" fikri ali məktəblərdə milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyasının əhəmiyyətini göstərir. Bu yanaşma tələbələrin yalnız peşəkar biliklərə yiyələnməsinə deyil, həm də milli kimlik, mənəvi məsuliyyət və vətəndaşlıq şüurunun formalaşmasına xidmət edir. Təhsil prosesində xalqın dili, mədəniyyəti, adət-ənənələri və mənəvi irsindən istifadə olunması gənclərin milli dəyərlərə bağlı və sosial məsuliyyətli şəxsiyyət kimi formalaşmasına şərait yaradır (Nezdemkovskaya, 2011). Ali məktəblərdə milli-mənəvi dəyərlərin təlim prosesinə inteqrasiyası müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilə bilər. Kurikulumun məzmununda əks olunması. Tədris proqramlarına milli tarix,

mədəniyyət və ədəbiyyatla bağlı mövzuların daxil edilməsi mühüm əhəmiyyət kəsb edir. Tədris metodlarının seçimi. İnteraktiv və müzakirəyə əsaslanan metodlar vasitəsilə tələbələrin milli dəyərlər barədə düşünməsi və fikir mübadiləsi aparması təmin edilə bilər.

Müəllimin rolu. Müəllim ali təhsil sistemində yalnız bilik ötürən şəxs deyil, eyni zamanda milli-mənəvi dəyərlərin daşıyıcısı və formalaşdırıcısı kimi çıxış edir. O, tələbələrin dünyagörüşünün formalaşmasında, mənəvi keyfiyyətlərinin inkişafında və milli kimliklərinin möhkəmlənməsində mühüm rol oynayır.

İlk növbədə, müəllim tədris etdiyi fənnin məzmununa milli-mənəvi komponentləri inteqrasiya etməklə tələbələrdə bu dəyərlərə maraq və həssaslıq formalaşdırır. Mövzuların milli kontekstlə əlaqələndirilərək təqdim olunması tələbələrin əldə etdikləri biliklərin cəmiyyət və milli irslə bağlılığını daha dərindən dərk etmələrinə imkan verir. Digər tərəfdən, müəllimin şəxsi nümunəsi xüsusi əhəmiyyət daşıyır. Onun davranışı, ünsiyyət tərzi, etik prinsiplərə riayət etməsi və milli dəyərlərə münasibəti tələbələr tərəfindən nümunə kimi qəbul olunur. Bu baxımdan müəllim öz fəaliyyəti ilə tələbələrdə vətənpərvərlik, məsuliyyət, dürüstlük və qarşılıqlı hörmət kimi keyfiyyətlərin formalaşmasına təsir göstərir. Bununla yanaşı, müəllim tənqidi və yaradıcı düşüncənin inkişafını dəstəkləyərək tələbələrin milli-mənəvi dəyərləri yalnız qəbul etməsini deyil, onları dərk edərək müasir dövrün tələbləri ilə əlaqələndirməsini də təmin edir. Müzakirələr, debatlar və layihəəsaslı tapşırıqlar vasitəsilə tələbələr bu dəyərləri daha dərindən mənimsəyir və onları praktik həyatla əlaqələndirməyi öyrənirlər. Nəhayət, müəllim tələbələrlə fərdi yanaşma əsasında işləyərək onların maraq və ehtiyaclarını nəzərə almalı, inklüziv və dəstəkləyici təhsil mühiti yaratmalıdır. Belə mühitdə milli-mənəvi dəyərlər yalnız nəzəri anlayış kimi deyil, həm də gündəlik davranış modeli kimi formalaşır. Tərbiyəvi mühitin yaradılması. Ali məktəblərdə keçirilən tədbirlər, seminarlar və layihələr milli-mənəvi dəyərlərin təbliği və təşviqində mühüm rol oynayır.

Milli-mənəvi dəyərlərin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi prosesində dil mühüm vasitə kimi çıxış edir. Xüsusilə ali məktəblərdə tədris prosesinin təşkili və planlaşdırılması zamanı ana dilinin funksional imkanlarından səmərəli istifadə edilməsi tələbələrin milli kimliyinin formalaşmasına, mənəvi dünyasının zənginləşməsinə və dəyərlərə bağlılığının güclənməsinə xidmət edir. Ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi yaddaşını, mədəniyyətini, adət-ənənələrini və dünyagörüşünü özündə ehtiva edən əsas daşıyıcıdır.

Bu baxımdan ali təhsil müəssisələrində dərslərin, xüsusilə humanitar fənlərin tədrisində dilin milli-mənəvi məzmunla zənginləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Məsələn, mühazirə və

seminar materiallarında klassik və müasir Azərbaycan ədəbiyyatından nümunələrin, atalar sözlərinin, deyimlərin və frazeoloji birləşmələrin istifadəsi tələbələrin həm dil bacarıqlarını inkişaf etdirir, həm də onların milli dəyərlərə münasibətinin formalaşmasına töhfə verir.

Azərbaycan dili dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün yalnız ünsiyyət vasitəsi deyil, həm də Azərbaycan xalqının elminin, mədəniyyətinin və mənəvi irsinin daşıyıcısıdır. Hər bir azərbaycanlının ana dilini bilməsi, onu qoruması və onunla fəxr etməsi mühüm mənəvi məsuliyyət kimi qiymətləndirilir (Cəfərov et al., 2013). Tədris prosesinin planlaşdırılması zamanı dil faktorunun nəzərə alınması aşağıdakı istiqamətlərdə həyata keçirilə bilər: Tədris materiallarının ana dilində yüksək keyfiyyətlə hazırlanması. Terminologiyanın milli dil normalarına uyğunlaşdırılması və elmi şəkildə izah edilməsi. İnteraktiv dərslərdə tələbələrin ana dilində sərbəst və düzgün ifadə bacarıqlarının inkişaf etdirilməsi. Milli-mənəvi məzmunlu mətnlərin təhlili və müzakirəsinin təşviq edilməsi.

Proqram materiallarının əsas məzmununu və başlıca qayəsini uzun illər ərzində xalqımızın, eləcə də bəşəriyyətin əldə etdiyi mənəvi sərvətlər təşkil etməlidir. Tədris proqramlarının bu istiqamətdə qurulması milli-mənəvi dəyərlərin aşılanması imkanlarını daha da genişləndirir (Əliyev, 2006). Qloballaşma şəraitində xarici dillərin öyrənilməsi ilə yanaşı, ana dilinə xüsusi diqqət yetirilməsi vacibdir. Bu balansın qorunması tələbələrin həm beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin yüksəlməsinə, həm də milli identikliyinin qorunmasına xidmət edir.

**Müzakirə**

Aparılan tədqiqatın nəticələrinin təhlili göstərir ki, ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyası tələbələrin dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Sorğu nəticələrinə əsasən, respondentlər ümumilikdə milli-mənəvi dəyərlərin ali təhsildə tədrisinin vacibliyini yüksək qiymətləndirir və bu dəyərlərin gənclərin şəxsiyyət kimi inkişafına, milli kimlik hissinin güclənməsinə və sosial məsuliyyətin formalaşmasına müsbət təsir göstərdiyini qeyd edirlər. Eyni zamanda təhlil göstərir ki, tələbələrin böyük hissəsi bu dəyərlərin yalnız nəzəri şəkildə deyil, praktik tədris mühitində də daha geniş şəkildə əks olunmasını zəruri hesab edir. Bu isə onu göstərir ki, mövcud tədris prosesində milli-mənəvi məzmunun inteqrasiyası müəyyən səviyyədə həyata keçirilsə də, onun sistemli və ardıcıl tətbiqi hələ də təkmilləşdirilməyə ehtiyac duyur. Araşdırma çərçivəsində əldə olunan nəticələr ali məktəblərdə müəllimin rolunun xüsusi əhəmiyyət daşıdığını da ortaya qoyur. Respondentlərin fikirlərinə əsasən, müəllimin şəxsi davranışı, peşəkar yanaşması və tədris zamanı seçdiyi nümunələr tələbələrin milli-mənəvi dəyərləri mənimsəməsinə birbaşa təsir göstərir. Bu nəticə pedaqoji prosesdə müəllimin yalnız bilik ötürən deyil, eyni zamanda dəyərlərin formalaşmasına

istiqamət verən əsas subyektlərdən biri olduğunu təsdiqləyir. Digər mühüm məqam tədris dilinin və humanitar fənlərin roludur. Təhlillər göstərir ki, ana dilində aparılan tədris, eləcə də milli ədəbiyyat, tarix və mədəniyyət nümunələrinin dərs prosesində istifadəsi tələbələrin milli kimlik şüurunun formalaşmasına müsbət təsir göstərir. Bu nəticə qloballaşma şəraitində dil amilinin milli-mənəvi dəyərlərin qorunmasında strateji əhəmiyyət daşıdığını bir daha təsdiqləyir.

Bununla yanaşı, tədqiqat zamanı bəzi çətinliklər də müəyyən edilmişdir. Xüsusilə tədris proqramlarında milli-mənəvi məzmunun sistemli şəkildə əks olunmaması, bəzi hallarda isə bu mövzuların formal xarakter daşıması əsas problemlərdən biri kimi qiymətləndirilə bilər. Bu vəziyyət ali təhsil sistemində kurikulumların daha məqsədyönlü şəkildə təkmilləşdirilməsinin vacibliyini göstərir.

Ümumilikdə əldə olunan nəticələr göstərir ki, milli-mənəvi dəyərlərin ali təhsil sisteminə inteqrasiyası yalnız tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə deyil, həm də cəmiyyətin mənəvi inkişafına xidmət edən mühüm amillərdən biri kimi çıxış edir. Bu baxımdan müasir pedaqoji yanaşmaların tətbiqi, müəllim hazırlığının gücləndirilməsi və tədris materiallarının milli-mənəvi məzmunla zənginləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin səmərəli şəkildə formalaşdırılması məqsədilə aşağıdakı praktik tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur. Kurikulumun yenilənməsi. Tədris proqramları yenilənərkən milli-mənəvi dəyərləri əks etdirən mövzular sistemli şəkildə kurikuluma daxil edilməlidir. Bu proses epizodik deyil, ardıcıl və mərhələli xarakter daşımalıdır. Xüsusilə humanitar və sosial fənlərdə milli tarix, ədəbiyyat, mədəniyyət və etik dəyərlərlə bağlı modulların genişləndirilməsi məqsədəuyğun olardı. Dəyəryönümlü modulların hazırlanması. Ali təhsil proqramlarında ayrıca dəyəryönümlü təlim modulları hazırlanaraq tətbiq edilməlidir. Bu modullar tələbələrdə vətənpərvərlik, sosial məsuliyyət, etik davranış və milli kimlik kimi keyfiyyətlərin formalaşdırılmasına yönəldilməlidir. Modul əsaslı yanaşma bu dəyərlərin sistemli və ölçülə bilən şəkildə mənimsənilməsinə imkan yaradır. Müəllim hazırlığı və ixtisasartırma. Müəllimlərin milli-mənəvi dəyərlərin tədrisi sahəsində kompetensiyalarının artırılması məqsədilə xüsusi təlimlər və ixtisasartırma proqramları təşkil olunmalıdır. Bu proqramlarda müəllimlərə interaktiv metodlar, dəyəryönümlü tədris texnologiyaları və müasir pedaqoji yanaşmalar təqdim edilməlidir.

Auditoriyadankənar fəaliyyətlərin təşkili. Tədris prosesindən əlavə seminarlar, debatlar, layihələr, mədəni tədbirlər və sosial təşəbbüslər vasitəsilə tələbələrin milli-mənəvi dəyərlərlə bağlı praktik təcrübələrinin artırılması vacibdir. Bu fəaliyyətlər tələbələrin əldə etdikləri bilikləri real həyatla əlaqələndirmələrinə şərait yaradır. Qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi. Tələbələrin yalnız akademik bilikləri deyil, həm də dəyəryönümlü davranışları qiymətləndirmə meyarlarına daxil

edilməlidir. Layihə işləri, təqdimatlar və sosial fəaliyyətlər bu baxımdan qiymətləndirmə vasitəsi kimi istifadə oluna bilər. Rəqəmsal resurslardan istifadə. Milli-mənəvi dəyərlərin təbliği məqsədilə rəqəmsal platformalardan, multimedia materiallarından və onlayn tədris resurslarından istifadənin genişləndirilməsi məqsədəuyğundur. Bu yanaşma xüsusilə müasir tələbələrin maraq dairəsinə uyğun təsirli vasitələrdən biri hesab edilə bilər.

BDU tələbələri arasında aparılmış sorğu çərçivəsində aşağıdakı əsas suallardan istifadə edilmişdir:

*Milli-mənəvi dəyərlər dedikdə nə başa düşürsünüz?

*Hansı milli dəyərləri tanıyırsınız?

*Sizcə, ali məktəblərdə milli-mənəvi dəyərlərin tədrisi vacibdirmi?

*Tədris prosesində milli-mənəvi dəyərlərə kifayət qədər yer verildiyini düşünürsünüzmü?

*Hansı fənlərdə milli-mənəvi dəyərlər daha geniş şəkildə tədris olunmalıdır?

*Müəllimlər dərs zamanı milli dəyərlərə nə dərəcədə diqqət yetirirlər?

*Auditoriyadankənar fəaliyyətlər çərçivəsində milli-mənəvi dəyərləri əks etdirən hansı tədbirlərdə iştirak etmisiniz?

*Milli-mənəvi dəyərlərin tədrisi sizin şəxsi inkişafınıza təsir göstərirmi?

Aparılan sorğudan əldə edilən nəticələrə nəzər yetirək;

***Cədvəl 1. Tələbələrin milli-mənəvi dəyərlərin ali təhsildə tədrisinə münasibətinin nəticələri***

| № | Sual/ Göstərici | Nəticə (%) | Qısa izah |
|---|---|---|---|
| 1 | Milli-mənəvi dəyərlərin tədrisinin vacibliyi | 80 | Tələbələrin böyük əksəriyyəti vacib hesab edir |
| 2 | Tədris prosesində bu dəyərlərə yer verilməsi | 65 | Qismən yer verildiyini bildirirlər |
| 3 | Fənlərdə geniş şəkildə tədris olunması | 70 | Həm humanitar, həm ixtisas fənləri |
| 4 | Müəllimlərin bu məsələyə diqqəti | 60 | Orta səviyyədə diqqət yetirilir |
| 5 | Şəxsi inkişafa təsiri | 75 | Müsbət təsir göstərir |

Sorğunun nəticələrinə əsasən demək olar ki, tələbələrin böyük əksəriyyəti milli-mənəvi dəyərlərin ali təhsil müəssisələrində tədrisinin vacibliyini qəbul edir. Eyni zamanda, bu dəyərlərin tədris prosesində daha geniş və sistemli şəkildə yer almasının zəruri olduğu qənaətinə gəlinir. Bu nəticələr milli-mənəvi tərbiyənin tələbələrin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynadığını göstərir. Qeyd olunduğu kimi, insanın mənəvi kamilliyi və əxlaqi keyfiyyətləri onun sosial mövqeyinin və davranışının əsas göstəricilərindən biri hesab olunur. Bu baxımdan əxlaqi tərbiyə və mənəvi inkişaf təhsil prosesinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir (Quliyev & Quliyeva, 2011).

**Nəticə**

Aparılan tədqiqat göstərir ki, ali təhsil müəssisələrində milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyası tələbələrin şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyətə malikdir. Araşdırma nəticələri milli-mənəvi dəyərlərin tədrisinin tələbələrdə milli kimlik şüurunun möhkəmlənməsinə, vətənpərvərlik hissinin inkişafına və sosial məsuliyyət anlayışının güclənməsinə müsbət təsir göstərdiyini ortaya qoymuşdur.

Sorğuda iştirak edən respondentlərin mövqeləri göstərir ki, milli-mənəvi dəyərlərin ali təhsil sistemində tədrisi müasir dövrdə aktuallığını qoruyan və əhəmiyyətini itirməyən pedaqoji istiqamətlərdən biridir. Eyni zamanda müəyyən edilmişdir ki, ali təhsil müəssisələrində bu dəyərlərin tədris prosesində tətbiqi müəyyən səviyyədə həyata keçirilsə də, onların kurikulum və institusional fəaliyyət çərçivəsində daha sistemli şəkildə inteqrasiyasına ehtiyac vardır.

Tədqiqatın nəticələri müəllimin pedaqoji mövqeyinin və şəxsi nümunəsinin milli-mənəvi dəyərlərin mənimsənilməsi prosesində mühüm rol oynadığını da təsdiqləmişdir. Müəllimin peşəkar fəaliyyəti, ünsiyyət mədəniyyəti və dəyərlərə münasibəti tələbələrin mənəvi dünyagörüşünün formalaşmasına təsir göstərən əsas amillərdən biri kimi çıxış edir.

Araşdırma zamanı ana dilinin tədris prosesində funksional və məqsədyönlü istifadəsinin tələbələrin milli-mənəvi şüurunun inkişafına mühüm töhfə verdiyi müəyyən edilmişdir. Bu baxımdan tədris proqramlarında milli-mənəvi məzmunun genişləndirilməsi, sistemləşdirilməsi və müasir pedaqoji yanaşmalarla zənginləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, milli-mənəvi dəyərlərin ali təhsil sistemində daha səmərəli şəkildə tətbiqi yalnız təlim və tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsinə deyil, həm də cəmiyyətin sosial-mənəvi inkişafının dəstəklənməsinə xidmət edən strateji istiqamətlərdən biri kimi qiymətləndirilə bilər.

**Author Contributions**

Rahima Kuhi solely conceived and designed the study, conducted the literature review, collected, analyzed, and interpreted the data, drafted the manuscript, and completed all revisions. The author read and approved the final version of the manuscript.

**Kaynaklar**

Abbasov, A. (2010). *Milli əxlaq və ailə etikası*. Mütərcim.

Azərbaycan Respublikası. (2009). *Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu*.

Cəfərov, N., Çobanov, M., & Paşayeva, Q. (2013). *Azərbaycanşünaslığın əsasları*. AzAtam.

Əliyev, P. B. (2006). *Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi*. Təhsil.

Kuhi, R. (2025). Ali məktəblərdə tədrisin təşkilində milli-mənəvi dəyərlərdən istifadə. *ARTİ Elmi Əsərlər Jurnalı, 92*(1), 59–63.

Nezdemkovskaya, G. (2011). *Etnopedagogika*. Al'ma Mater. (in Russian).

Nugroho, N., Dhony, A., Wadiyo, W., Sahid, N., & Cahyono, A. (2025). Integration of moral values through dramaturgy in Dulmuluk theater: A study on its educational impact. *The Journal of Education, Culture and Society*, (2), 757–776.

Qasımova, L. (2004). *Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən*. Nurlan.

Quliyev, S., & Quliyeva, M. (2011). *Gəncliyin tərbiyəsində aqillərin nəsihəti və vəsiyyətləri*. ADPU.

UNESCO. (2021). *Reimagining our futures together: A new social contract for education*. UNESCO Publishing. UNESCO Digital Library